**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# "AZƏRBAYCANIN TİKİNTİ SAHƏSİNDƏ İQTİSADİ MÜNASİBƏTLƏRİN FORMALAŞMASI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ"

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

Elm sahəsi: 53 - İqtisad elmləri

İddiaçı: **Yusif Cavad oğlu Binnətov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "İqtisadi nəzəriyyə və marketinq" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Ümüdvar Qənbər oğlu Əliyev**

**Rəsmi opponentlər:** İqtisad elmləri doktoru, professor
**Niyazi Əlikram oğlu Həsənov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Ülviyyə Yasın qızı Hüseynova**

iqtisad üzrə fəlsəfə doktoru
**Kərim Pirməmməd oğlu Piriyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: iqtisad elmləri doktoru, professor
**Nazim Müzəffərli (İmanov)**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
**Tərbiz Nəsib oğlu Əliyev**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan iqtisadiyyatının dinamik inkişafi, istehsalın şərtləri və imkanlarının daima yeni səviyyələrə doğru dəyişməsi səbəbindən bu şərtlər və imkanların daha da sürətlə genişlənməsinə imkan verən müvafiq iqtisadi münasibətlərin daha da təkmiləşməsini obyektiv zərurətə çevirir.

İctimai istehsalın təkrar istehsalı qanunayğunluqlarına müvafiq olaraq daima yeni, daha mütərəqi iqtisadi forma və münasibətlərin yaradılması, köhnəlmiş və istehsalın inkişafına iqtisadi maneələrə çevrilmiş idarəetmə və tənzimləyici metod və vasitələrin yeniləri ilə əvəz olunması iqtisadi və siyasi zərurətə çevrilmişdir. Bütövlükdə bütün milli iqtisadiyyat üçün mühüm əhəmiyyət kəsb edən bu qanuauyğunluq, iqtisadi sistemdə özünəməxsus iqtisadi və gücləndirilmiş dalğavari təsirə malik olan tikinti sahəsi üçün xüsusilə aktualdır.

Tikinti sahəsi ölkə əhalisinin ən mühüm ehtiyaclarından olan mənzilə olan ehtiyaclarını qarşılamaqla sosial problemlərin həllinin şərti hesab olunmaqla yanaşı, tikinti-quraşdırma fəaliyyəti ilə ölkədə ictimai istehsala əsas kapitalın yatırılmasının ən başlıca vasitəsi olmaqla onun inkişafının əsas şərti hesab olunur. Bütün bunlar tikinti sahəsinin ölkə iqtisadiyyatında xüsusi rolunu müəyyən etməyə imkan verir.

Tikinti sahəsinin qeyd olunan əhəmiyyəti, onun dinamik inkişaf etdirilməsini zəruri edir. Bu inkişafın başlıca şərti isə tikinti sahəsində fəaliyyət göstərən bütün bazar sübyektlərinin qarşılıqlı təsiri və asılılığına uyğun olaraq onların maraqlarını və istehsalı inkişaf etdirmək motivlərini gücləndirən, daha keyfiyyətli tikinti məhsulunu təklif etməklə, istehlakçıların tədiyyə qabiliyyətinə uyğun qiymətlər formalaşmasını təmin edən iqtisadi mexanizmi özündə əks etdirən iqtsadi münasibətlər sistemini təklif etməkdir.

Mövzunun aktuallığını gücləndirən digər amil ondan ibarətdir ki, tikinti sahəsində investisya sahibləri, tikinti şirkətləri və tikinti məhsulunun sifarişçiləri arasında olan iqtisadi münasibətlərə aid iqtisadi təhlil və araşdırmalar inzibati amirlik iqtisadiyyatı dövrünə xas olan problemlər haqqında olmasıdır. Odur ki, müasir tikinti

bazarı və onun iştirakçılarının əlaqə və münasibətlərinin xarakterinə və motivlərinə, dövlətin tikinti sahəsində müstəqil, fəal investiya fəaliyyəti nəticəsində yaranan münasibətlərin araşdırılması, müqavilə öhdəliklərinin və gəlirlərin bölüşdülməsi sisteminin yeni formalarının müəyyən edilməsinə çox böyük nəzəri və praktiki ehtiyac vardır.

Tikinti sektorunda iqtisadi münasibətlərin tənzimlənməsi, bazar iqtisadiyyatının tələblərinə uyğun inkişaf strategiyalarının hazırlanması və dövlət-özəl sektor tərəfdaşlığının gücləndirilməsi də aktual məsələlər sırasındadır. Tikinti sahəsi bütövlükdə milli iqtisadiyyatın inkişafını sürətləndirməyə şərait yaradan bir sahədir. Tikinti sahəsində də dövlətin və hər bir sahibkarın əsas məqsədi ondan ibarətdir ki, istehlakcıların tələbatını düzgün ödəməklə gəlir əldə etsin.

Tədqiqatlar göstərir ki, tikinti sahəsində iqtisadi münasibətlərin formalaşması və təkmilləşdirilməsi elmi cəhətdən kifayət qədər araşdırılmamışdır. Məhz buna görədə dissertasiya işinin mövzusu bu aktual problemin tədqiqinə yönəldilmişdir.

Dissertasiya işində tikinti sahəsində iqtisadi münasibətlərin bazar iqtisadiyyatının prinsiplərinə uyğun yeni formalarının yaradılmasının və təkmilləşdirilməsinin nəzəri və praktiki problemləri tədqiq edilmişdir.

Azərbaycanın tikinti sahəsində iqtisadi problemləri bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq ölkəmizin alimlərinin əsərlərində həm nəzəri, həm də praktiki cəhətdən tədqiq edilmişdir. Bu sahədə tədqiqat aparan alimlərdən T.T. Eyniyev, Ə.M. Əliyev, K.Ə.Əliyev, A.C. Binnətov və digər alimləri göstərmək olar. Qeyd olunan problemlər müxtəlif istiqamətlərdə digər tədqiqatçıların: N.(Müzəffərli) İmanov, Ə.B.Əliyev, Ş.M.Muradov, T.N.Əliyev, Ə.X.Nuriyev, Ü.Q.Əliyev, R.P.Sultanova, G.Z.Yüzbaşıyeva, S.M.Mikayılova, S.M.Seyidova, A.N.Muradov və b. əsərlərində də baxılmışdır. Eyni zamanda problemin aktuallıgı digər inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin alimlərinin də diqqətini cəlb etmişdir. Xarici ölkələrin alimlərindən V.V.Buzirev, N.E.Virina, V.V.Mişenko, D.V.Şirokov, O.B.Popov, U.B.Bryanseva, H.B.Nesteroviç, B.U.Smirnov, İ.İ.Mazur, C.D.Şapiro,

N.V.Çepaçeko və b. əsərlərində bu problem ilə əlaqədar bir sıra məsələləri tədqiq etmişlər.

Azərbaycanın və xarici ölkə alimlərinin əsərlərində tikinti sahəsində iqtisadi münasibətlərin ümumi məsələlərinə toxunulmuşdur. Müasir mərhələdə tikinti sahəsində yeni, bazar prinsiplərinə uyğun iqtisadi münasibətlərin formalaşması və təkmilləşdirilməsi ilk dəfə olaraq bu dissertasiya işində ətraflı tədqiq edilir.

**Tədqiqatın obyekti:** Tədqiqatın obyekti Azərbaycanın tikinti sahəsidir.

**Tədqiqatın predmeti**: Tədqiqatın predmeti, bazar prinsiplərinə uyğun iqtisadi münasibətlərin formalaşması və təkmilləşdirilməsində əsas rol oynayan tikinti sahəsində fəaliyyət göstərən şirkətləri əhatə edən, onların iqtisadi fəaliyyətinə həvəsləndirici təsir göstərən iqtisadi forma və normaları, həmçinin bu təsiri təmin edən nəzəri-metodoloji və praktiki həll yollarını özündə əks etdirən təsərrüfatçılıq mexanizmidir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissetasiya işinin məqsədi Azərbaycanın tikinti sahəsində iqtisadi münasibətlərin formalaşması və təkmilləşdirilməsinin nəzəri, metodoloji və praktiki əsaslarını araşdırmaq, iqtisadi münasibətlərin daha da təkmilləşdirilməsinə yönəldilmiş tədbirlər kompleksini elmi cəhətdən işlənib hazırlanmasıdır.

Qeyd olunan məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

-milli iqtisadiyyatın sahəsi kimi tikintidə iqtisadi münasibıtlərin xarakterinin milli iqtisadiyyatın inkişafına təsirinin və rolunun müəyyənləşdirilməsi;

-tikinti sahəsində iqtisadi münasibətlərin istehsal münasibətləri sistemində rolu və sosial-iqtisadi əhəmiyyətinin araşdırılması;

-investorlarla-tikinti fəaliyyəti iştirakçıları arasında iqtisadi münasibətlərin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi;

-daima dəyişən iqtisadi münasibətlər şəraitində tikinti şirkətinin kompleks idarəetmə sisteminin vəzifələrinin araşdırlıması;

-dövlətin tikinti sektoruna tənzimləyici təsirlərinin artdığı şəraitdə tikinti şirkətinin mənfəət və gəlirlərinin təhlil edilməsi;

-tikinti sahəsində rəqabətin güclənməsi və dövlətin tikinti bazarına fəal müdaxiləsi şəraitində tikinti təşkilatlarının daxili və xarici mühitinin inkişaf istiqamətlərinin müəyyənləşməsi;

-dinamik iqtisadi münasibətlər sistemində tikinti şirkətinin bazar etibarlığı səviyyəsinin müəyyən edilməsi metodikasının işlənməsi və tətbiqinə dair tövsiyyələr hazırlanması;

-podrat bazarlıqları mexaniziminin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

**Tədqiqat metodları.** Tədqiqat prosesində həll edilən məsələlərin xarakterinə uyğun olaraq sistemli yanaşma, ilkin məlumatların işlənməsi üçün statistik metodlar, statistik qruplaşdırma, iqtisadi-statistik üsullar, müqayisəli iqtisadi təhlil metodları, qrafik təsvirlər və statistik hesablamalardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- tikinti sahəsinin xarakterik cəhətləri və xüsusiyyətləri hər bir tikinti istehsalı aktında tikinti istehsalı iştirakçıları arasında hər dəfə fərqli iqtisadi münasibətlərin yaranmasına səbəb olur ki, bu da tikintinin inkişafına əsaslı təsir edir;

- tikinti sahəsi maddi və qeyri maddi istehsalın resurslarının və infrastrukturun yaradılması və fəaliyyətini təmin etdiyinə görə tikinti sahəsində iqtisadi münasibətlər ölkə iqtisadiyyatının inkişaf sürətini müəyyənləşdirir;

- investisiya-tikinti prosesinin iştirakçılarının funksiyalarına uyğun sifarişçi və podratçı arasında məsuliyyətin müəyyən edilməsi və gəlirlərin bölüşdürülməsi üzrə razılıq tikinti istehsalının başlanmasının mühüm şərtidir;

- investisiya-tikinti layihəsinin idarə edilməsinin səmərəliliyi kompleks qrup göstəricilərinin tikinti şirkətinin həyat tsiklinin fazaları üzrə prioritet istiqamətlərə uyğun təhlilindən asılıdır;

- tikinti şirkətlərinin gəlir və xərclərinin quruluşu, mənfəətin həcmi və dinamikasının parametrlərinin qənaətbəxş olmaması hazırda tikinti sahəsinin inkişafına mane olur;

- tikinti şirkətinin bazar etibarlılığının qiymətləndirilməsi göstəricilərinin kompleks təhlili metodikası onların rəqabətqabiliyyətliliyini müəyyən etməyə imkan verir;

- podrat işlərində müsabiqənin aparılmasının təşkili və üsullarının düzgün müəyyən edilməsi tikinti məhsulunun qiymətinin əmələ gəlməsində müstəsna əhəmiyyət kəsb edir.

- **Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

-iqtisadi proses kimi tikinti sahəsinin spesifik xarakterik cəhətləri və xüsusiyyətlərinin müəyyən edilməsi əsasında daima yeni iqtisadi forma və münasibətlərin yarandığı əsaslandırılmışdır[1.s-40];

-tikinti sahəsində iqtisadi münasibətlərin formalaşmasına prosess kimi baxılmış, hər bir tikinti üzrə və müvafiq həll üsullarına və iştirakçıların funksiyalarına uyğun yeni münasibətlərin qurulması əsaslandırlmışdır[2.,s-60].

-yeni informasiya texnologiyasının tətbiqi ilə tikinti subyektlərinin qarşılıqlı təsir prosesinin əsas prinsipləri araşdırılmışdır[2.s-61];

-investisiya-tikinti prosesinin iştirakçılarının əsas funksiyaları əsasında yaranan istehsal münasibətləri və təşkilat formalarının xarakteristikası verilmiş, müxtəlif variantlarda sifarişçi və podratçı arasında məsuliyyətin bölüşdürülməsi məsələlərinə baxılmışdır[3.s-107];

-daima dəyişən iqtisadi münasibətlər şəraitində investisiya-tikinti layihəsinin idarə edilməsinin kompleks qrup göstəricilərinin təhlili aparılmış və tikinti şirkətinin həyat tsikli mövqeyindən idarə etmə sisteminin təhlilinin mərhələləri müəyyən edilmişdir[18. s-216];

-tikinti şirkətinin maliyyə vəziyyəti, gəlirləri və xərclərinin tərkibinin təhlili aparılmış, vergi qoymadan əvvəl mənfəətin dinamikası işlənmiş, bölüşdürülməmiş xalis mənfəətin formalaşmasının amil təhlilinin struktur-məntiqi modeli verilmişdir[4.s-514;15.s-119];

-daima dəyişən iqtisadi münasibətlər sistemində bazar etibarlılığının qiymətləndirilməsi göstəricilərinin əsas qrupları təklif edilmiş və onun səviyyəsinin müəyyən edilməsi və təhlili alqoritminin işlənilməsi təkmilləşdirilmişdir[5.s-72;10.s-84];

-tikintinin idarə edilməsi istehsalın ixtisaslaşması və təmərküzləşməsi səviyyəsi ilə xarakterizə olunması, kooperativləşdirmənin və kombinasiyanın səviyyələri müəyyən

edilmiş, diversifikasiya və onun növləri habelə strateji kooperasiyanın variantları nəzərdən keçirilmiş və təkmilləşdirilmişdir[11.s-99];

-daima dəyişən iqtisadi münasibətlər sistemində podrat işlərinin yerləşdirilməsi üsullarının təsnifatı və müsabiqənin aparılmasının təşkili və üsulları fərqləndirilmiş, podrat bazarlıqları ilə bağlı sifarişçinin və iddiaçının xərcləri müəyyən edilmişdir[9.s-20];

-podrat müqavilələrinin əlamətlərinə müvafiq olaraq bağlaşmanın tiplərinin təsnifatı aparılmış, qiymətlərin formalaşması metodu üzrə tikinti bağlaşmalarının təsnifatı təkmilləşdirilmişdir [8.s-504,16.s-356].

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, əldə edilən əsas müddəalar, nəticələr və təkliflər tikinti sahəsinin inkişafına yönəlmiş dövlət iqtisadi tədbirlərinin hazırlanmasına, tikinti şirkətlərinin fəaliyyətinin səmərəli idarə edilməsinə, tikinti sahəsinə dair iqtisadi proqramların tərtibinə, eləcə də strateji planlaşdırma və proqnozlaşdırmanın effektiv şəkildə həyata keçirilməsinə əlverişli şərait yaradır.

Tədqiqat prosesində əldə edilmiş nəticələr, irəli sürülmüş müddəalar təklif olunan metodik materiallar İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, maliyyə- sənaye qrupları, holdinglər və s. tərəfindən, şəhər və regionlarda tikinti proqramlarının hazırlanmasında və həyata keçirilməsində, həmçinin inşaat bazarının inkişafı üzrə müvafiq yönümlü qərarların və normativ hüquqi sənədlərin hazırlanması zamanı, həmçinin Azərbaycan Memarlıq və İnşaat Universitetində "Tikintinin iqtisadiyyatı", "İnşaatda Menecment", "İnşaatda Marketinq, fənnlərinin tədris proqramlarının hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın aporobasiyası və işin nəticələrinin tətbiqi.** Tədqiqatın əsas müddəaları, irəli sürülən təklif və tövsiyələr tezis və məqalələr şəklində Beynəlxalq və ölkə səviyyəsində keçirilən elmi və elmi praktiki konfranslarda, həmçinin Azərbaycan Memarlıq və İnşaat Universitetinin müvafiq kafedralarının elmi seminarlarında məruzə olunmuş və elmi jurnallarda dərc olunmuşdur. Ümumilikdə, dissertasiya işi ilə bağlı 5-i xaricdə olmaqla 33 elmi məqalə və konfrans materialları çap edilmişdir

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetində yerinə yetirilmişdir.

**İşin qurluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi 162 səhifədən ibarətdir. İşdə 30 cədvəl, 20 şəkil verilmişdir. Giriş (10851 işarə), I Fəsil (73293 işarə), II Fəsil (73076 işarə), III Fəsil (77680 işarə), Nəticə (4532 işarə), istifadə edilmiş ədəbiyyat siyahısı 18883 işarə daxil olmaqla ümümi 258315 işarə sayından ibarətdir. Cədvəllər, şəkillər, diaqramlar və istifadə edilmiş ədəbiyyatlar nəzərə alınmadan dissertasiya işinin həcmi 237787 işarə təşkil edir.

**DİSSERTASİYANIN STRUKTURU**

**GİRİŞ**

**FƏSIL I. TİKİNTİ SAHƏSİNDƏ İQTİSADİ MÜNASİBƏTLƏRİN NƏZƏRİ- METODOLOJİ ƏSASLARI**

1.1 Azərbaycan iqtisadiyyatında tikintinin rolu və yerinin elmi nəzəri tədqiqi.

1.2 Tikinti sahəsində iqtisadi münasibətlərin istehsal münasibətləri sistemində yeri və spesifik xüsusiyyətləri.

1.3 İnvestisiya - tikinti iştirakçıları arasında istehsal münasibətlərinin tikintinin inkişafında rolu.

**FƏSIL II. AZƏRBAYCANIN TİKİNTİ SEKTORUNDA MÜASİR İQTİSADİ MÜNASİBƏTLƏRİN FORMALAŞMASININ TƏHLİLİ**

2.1 Tikintidə iqtisadi münasibətlərin quruluşuna uyğun təşkilatı-iqtisadi formaların müəyyənləşməsi və inkişafı.

2.2 Tikinti iqtisadi münasibətləri sistemində mənfəət və gəlirlərin formalaşması və bölgusünün təhlili.

2.3 Tikinti sahəsində bazar etibarlığı səviyyəsinin müəyyən edilməsi metodikası və təhlili.

**FƏSIL III. AZƏRBAYCANIN TİKINTİ SAHƏSİNDƏ İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ.**

3.1 Tikinti sahəsində istehsal-iqtisadi münasibətlərin təkmilləşdirilməsində iqtisadi tənzimləmənin vəzifələri və istiqamətləri.

3.2 Tikintidə iqtisadi münasibətlər sistemində podrat bazarlıqları mexaniziminin inkişafı.

3.3 Tikintidə bağlaşma münasibətləri sisteminin təkmilləşdirilməsi.

**NƏTİCƏ**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və premeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi və.s verilmişdir.

**“Tikinti sahəsində iqtisadi münasibətlərin nəzəri-metodoloji əsasları” adlanan birinci fəsildə** Azərbaycan iqtisadiyyatında tikintinin rolu və yerinin elmi nəzəri tədqiqi, tikinti sahəsində iqtisadi münasibətlərin istehsal münasibətləri sistemində yeri və spesifik xüsusiyyətləri, investisiya - tikinti iştirakçıları arasında istehsal münasibətlərinin tikintinin inkişafında rolu araşdırılmışdır.

Tikintinin xarakterik cəhətləri və xüsusiyyətləri, onun son məhsulunun özünəməxsus xüsusiyyətləri və istehsal prosesinin spesifikası ilə müəyyən edilir. Bu xüsusiyyətlərə əməyin xüsusi şərtləri, texniki və texnoloji bazanın spesifikası, istehsalın təşkili, idarəetmə və maddi-texniki təminat daxildir. Həmçinin, pul vəsaitlərinin quruluşu, onların mənimsənilməsi və qaytarılması kimi amillər də tikinti sektorunun mühüm xüsusiyyətlərindəndir.

Tikintinin ən mühüm xüsusiyyətlərindən biri onun məhsullarının müxtəlifliyidir. Tikinti məhsulları ölçüsünə, tipinə, əhəmiyyətinə, dəyərinə və miqyasına görə fərqləndiyindən, onların əraziyə yerləşdirilməsi və istehsal prosesi hər dəfə yeni iqtisadi və təşkilati münasibətlər sisteminin formalaşmasına səbəb olur. Hər bir obyekt öz parametrlərinə görə tamamilə fərqli xüsusiyyətlərə malik ola bilər.

Bundan əlavə, tikintinin müxtəlif növləri və mərhələləri üzrə tətbiq edilən metodlar da fərqlidir. Sənaye tikintisinə aid obyektlərin inşası zamanı seçilən yanaşmaların spesifikliyi bu sahənin dinamikliyini artırır. Məsələn, elektrik ötürücü xəttinin inşası ilə yaşayış binasının tikintisi arasında ciddi texnoloji və təşkilati fərqlər mövcuddur. Hətta tikintinin eyni bir növü daxilində belə, məhsullar ölçüsünə, dəyərinə və mürəkkəbliyinə görə fərqlənə bilər.

Eyni zamanda, tikinti prosesi həyata keçirildiyi məkanın xüsusiyyətlərinə uyğun olaraq dəyişir. Məsələn, iri şəhərlərdə

çoxmərtəbəli yaşayış binasının inşası, onun mühəndis-kommunikasiya sistemləri ilə inteqrasiyası tələb edildiyindən, kənd ərazisində birmərtəbəli evin tikintisindən daha mürəkkəb yanaşma tələb edir. Bu faktorlar tikinti sahəsində planlaşdırma və idarəetmənin fərqli strategiyalar əsasında qurulmasını zəruri edir.

Bütün bu fərqliliklərə baxmayaraq, tikinti sahəsi ümumi xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər, konkret obyektlərin ölçüsündən, əhəmiyyətindən və funksional təyinatından asılı olmayaraq, tikinti prosesinin mahiyyətini və fəaliyyət prinsiplərini müəyyənləşdirir.

Tikinti sahəsinə məxsus ümumi xüsusiyyətlər arasında, ilk növbədə, onun texniki-iqtisadi xüsusiyyətlərini qeyd etmək olar:

- Tikinti məhsullarının təşkilati-texniki mürəkkəbliyi. Tikinti sektorunun əsas məhsulu olan obyektlər hərəkətsizdir, adətən iri ölçülərə və böyük çəkiyə malikdir. Bu obyektlər texniki və texnoloji baxımdan mürəkkəb struktura sahib olmaqla yanaşı, həm də müxtəlif xarakterli ola bilər.

- Tikinti proseslərinin texnoloji qarşılıqlı asılılığı. Tikinti istehsalında bütün əməliyyatlar bir-biri ilə sıx bağlıdır və müəyyən ardıcıllıqla yerinə yetirilməlidir. Bir proses tam başa çatmadan növbəti prosesə başlamaq mümkün deyil. Bu isə tikinti prosesinin dinamikliyini və yüksək səviyyədə koordinasiya tələb etdiyini göstərir. Digər istehsal sahələrindən fərqli olaraq, tikinti proseslərində aralıq məhsulların anbarlarda toplanması mümkün deyil. Hər bir tikinti mərhələsi birbaşa növbəti mərhələ üçün baza rolunu oynayır. Bundan əlavə, tikinti sahəsində işçi qüvvəsinin və texniki resursların səmərəli idarə olunması mühüm əhəmiyyət kəsb edir. Peşəkar işçi heyətinin düzgün yerləşdirilməməsi və iş şəraitinin səmərəsiz təşkili tikinti prosesini çətinləşdirə bilər.

Bütün bu xüsusiyyətlər tikinti sektorunu digər istehsal sahələrindən fərqləndirən əsas amillərdir və sahənin spesifik idarəetmə yanaşmalarını zəruri edir.

Bazar şəraitində tikinti prosesinə yalnız şaquli sahə əlaqələrinin deyil, həm də investorların üfüqi əlaqələrinin təsiri danılmazdır. Bu kontekstdə tikinti, iqtisadi proses kimi, yalnız binaların və qurğuların inşası ilə məhdudlaşmır, eyni zamanda onların bütün həyat dövrü

boyunca kapital sahiblərinin fasiləsiz investisiya fəaliyyətini əhatə edir. Belə ki, tikinti prosesinin həyata keçirilməsi məhz bu investisiya axını sayəsində mümkün olur və kapitalın yönəldildiyi sahəyə görə tikinti sahəsində strateji inkişaf formalaşır. Yəni tikinti prosesinə yönəldilən kapital təkcə inşaat mərhələsi üçün deyil, obyektin uzunmüddətli istismarına və dəyərinin qorunmasına da xidmət edir.

Tikinti sahəsində bazar proseslərinin əsasını artıq planlı iqtisadiyyatda olduğu kimi obyektlərin texnoloji və təşkilati-struktur birliyi deyil, onların hansı sahibkara məxsus olması, istifadə edilən kapitalın mülkiyyət formasına uyğunluğu və konkret investisiya proqramının icrasında iştirak prinsipi müəyyən edir. Bu yanaşma, tikinti prosesində əsas diqqətin texniki-struktur bağlılıqdan daha çox, maliyyə axınlarının idarə olunması və kapitalın yönləndirilməsinə verildiyini göstərir.

2. Tikinti sahəsində iqtisadi münasibətlərin yenidən qurulmasının əsasını bu sahədə fəaliyyət göstərən bütün müəssisə və şirkətlərin tam kommersiya hesabı ilə özünümaliyyələşdirməyə keçidi təşkil edir. Bu, təsərrüfatçılığın iqtisadi metodlarının tətbiqini zəruri edir və tikinti müəssisələrinin bazar prinsipləri əsasında fəaliyyət göstərməsini təmin edərək onların maliyyə dayanıqlılığını və rəqabət qabiliyyətini artırır.

Təsərrüfatçılığın iqtisadi metodları dedikdə, şirkətin (firmanın) fəaliyyətinin və inkişafının təşkili üçün əlverişli şəraitin yaradılmasına məqsədyönlü təsir göstərən vasitələrin və alətlərin cəmi başa düşülür. Təsərrüfat mexanizminin iqtisadi vasitələri şirkətin sosial-iqtisadi təbiətinə uyğun olaraq fəaliyyət göstərir və bazar şərtlərində istehsalın və tədavülün inkişafına təsir edən əsas amillərdən biridir. Bu baxımdan, təsərrüfatçılığın mühüm metodu kimi, kommersiya hesablaşmasının məzmununa daxil edilən yeniliklərin öyrənilməsi xüsusi əhəmiyyət daşıyır. Bu metod həm idarəetmə funksiyasını sintezləşdirir, həm də xərclərin və nəticələrin ölçülməsinə yönəlmiş iqtisadi vasitələr və alətlərdən ibarət olub, istehsalın mənfəətliliyini təmin etməyə xidmət edir.

Tikinti şirkətinə açıq bir sistem kimi yanaşılmalıdır; bu, şirkətin xarici mühitlə, istehlakçılarla, rəqiblərlə, təchizatçılarla, həmçinin ictimai və dövlət qurumları ilə iqtisadi münasibətlər

qurmasını tələb edir. Buna görə də, xarici mühitin sürətlə dəyişməsi strateji idarəetməni, marketinqi və menecmenti təşəbbüskar yanaşma ilə tətbiq etməyi zəruri edir. Şirkət, yalnız mövcud şəraitə uyğunlaşmaqla kifayətlənməyib, eyni zamanda dəyişən bazar şərtlərinə uyğun yeni imkanlar axtararaq irəliləməlidir.

**Cədvəl: 1**

**İnvestisiya-tikinti kompleksi bazarında iqtisadi münasibətlərin təşkilinin əsas prinsipləri.**

| Prinsip | Xüsusiyyətlər |
|---|---|
| Xüsusi mülkiyyətçilik | Bazar iştirakçıları resursları əldə etmə, onlardan sərbəst istifadə etmə, reallaşdırma və müqavilələr bağlama hüququna malikdirlər. |
| Seçim azadlığı | Tikinti və investisiya bazarında subyektlər öz potensiallarından sərbəst şəkildə istifadə edərək resurslarını istədikləri kimi yönləndirə və bazarda dəyərləndirə bilərlər. |
| Sahibkarlıq azadlığı | Hər bir iştirakçı istehsal prosesini müstəqil planlaşdırmaq, məhsul və xidmətlərini sərbəst bazara çıxarmaq imkanına malikdir. |
| Şəxsi maraq | Bazarın əsas hərəkətverici qüvvəsi subyektlərin şəxsi iqtisadi maraqlarıdır ki, bu da onların qərar və fəaliyyətlərinə birbaşa təsir edir. |
| Rəqabət mühiti | Tikinti və investisiya bazarında çoxsaylı müstəqil satıcı və alıcının mövcudluğu rəqabətli mühitin formalaşmasını təmin edir və bazar dinamikasını tənzimləyir. |
| Azad qiymət formalaşması | Qiymətlər tələb və təklifin qarşılıqlı təsiri əsasında sərbəst şəkildə müəyyən edilir ki, bu da bazarın təbii tarazlığını qoruyur. |
| Dövlətin rolu | Dövlətin bazara müdaxiləsi məhduddur və əsasən qanunların icrasını təmin etməklə, bazar iştirakçılarının hüquq və azadlıqlarının qorunmasına yönəlmişdir. |

*Mənbə:Aparılan tədqiqatın məqsəd və vəzifələrinə uyğun müəllif tərəfindən tərtib edilib.*

Yeni informasiya texnologiyalarının tətbiqi əsasında tikintidə investisiya dövrünün idarə edilməsinin təkmilləşdirilməsi, podrat bazarının və iqtisadi münasibətlər sisteminin formalaşması şəraitində ən vacib məsələlərdən biridir və ilkin olaraq həll olunmasını tələb edir. Tikinti şirkətlərində informasiya texnologiyalarının uğurla idarə olunması üçün məlumatların sistemli təhlilinə əsaslanaraq hadisələrin əvvəlcədən proqnozlaşdırılması vacibdir.

Tikintinin idarə edilməsində istifadə olunan məlumatlar aşağıdakı əsas mənbələrə dayanır:

- Podrat müqavilələri və sifarişlərdəki məlumatlar;
- İnvestisiya-tikinti prosesinin iştirakçılarının qarşılıqlı əlaqələrini xarakterizə edən məlumatlar;
- İnvestisiya dövrünün hər mərhələsindəki pozulmalar haqqında xəbərdarlıq edən məlumatlar;
- İdarələrarası və icraçı qurumlar arasında üfüqi əlaqələr haqqında məlumatlar və s.

Bu məlumatların düzgün şəkildə toplanması, təhlil edilməsi və tətbiq edilməsi, tikinti prosesinin daha səmərəli və şəffaf şəkildə idarə olunmasını təmin edəcəkdir.

İnvestisiya-tikinti kompleksi subyektlərinin qarşılıqlı təsir proseslərinin təşkilinin əsas prinsipləri cədvəl 1-də verilir.

Bu prinsiplər, investisiya-tikinti kompleksinin subyektlərinin davranış sərhədlərini və normalarını müəyyənləşdirir. Onların aydın şəkildə ifadə edilməsi, yeni formalaşan istehsal münasibətlərində ən vacib problemləri dərhal müəyyən etməyə imkan verir. Bu prinsiplərə əsaslanaraq, müəyyən proseslərin uyğunluğunu real və doğru şəkildə qiymətləndirmək mümkündür. Beləliklə, investisiya və tikinti sahəsindəki fəaliyyətlərin effektivliyini və uyğunluğunu müəyyən etmək üçün etibarlı bir əsas yaranır.

Hazırda bazarda fəaliyyət göstərən tikinti şirkətlərinin böyük əksəriyyəti özəl mülkiyyətə sahib olan müəssisələrdir. 2023–cü ilin statistik məlümatlarına əsasən tikinti üzrə ölkədə fəaliyyər göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ümumi sayı 16164 nəfərdir. Bunlardan 164 nəfəri dövlət mülkiyyətinə,15999 nəfər isə qeyri dövlət mülkiyyət formasında fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektləridir.

İqtisadi münasibətlər sistemində investisiya-tikinti layihəsinin iştirakçıları, layihənin miqyası və mürəkkəbliyinə görə müxtəlif rollara və funksiyalara malikdir. Bu iştirakçılar arasında funksiyaların və məsuliyyətlərin bölüşdürülməsi layihənin tələblərinə uyğun şəkildə həyata keçirilir. Layihənin böyüklüyü və mürəkkəbliyi, hər bir iştirakçının rolunu daha dəqiq müəyyən etməyi və onların qarşılıqlı əməkdaşlıqla daha effektiv işləməsini təmin edir. Bu da layihənin uğurlu və vaxtında icrasını təmin edir.

**3.** İnvestisiya-tikinti prosesi iştirakçılarının əsas funksiyaları arasında istehsal münasibətlərinin və təşkilat formalarının qısa xarakteristikası verilir (cədvəl 2).

**Cədvəl 2.**

**İnvestisiya-tikinti prosesinin iştirakçılarının əsas funksiyaları arasında istehsal münasibətləri və təşkilat formalarının xarakteristikası .**

| İştirakçılar | Əsas funksiyalar | Təşkilati strukturlar |
|---|---|---|
| **İnvestorlar və sifarişçilər** | Layihənin maliyyələşdirilməsini təmin edir, məqsədlərini müəyyənləşdirir və icrasına nəzarət edir. Podratçılar və digər xidmət təminatçıları ilə müqavilələr bağlayır, layihənin uğurla tamamlanmasını və istifadəyə verilməsini təmin edir. | Dövlət qurumları, özəl müəssisələr, fiziki şəxslər, banklar və kredit təşkilatları. |
| **Layihəçilər** | Memarlıq və mühəndislik həllərini hazırlayır, texniki və funksional tələbləri nəzərə alır. Layihə sənədlərinin düzgün icrasına nəzarət edir, podratçılarla əlaqə saxlayır və dövlət qurumlarından icazələr alır. | Layihə institutları, mühəndis büroları və layihə təşkilatları. |
| **Təchizatçılar və istehsalçılar** | Tikinti üçün tələb olunan material və avadanlıqları istehsal edir və tədarük edir. Layihə sahəsinə materialların vaxtında çatdırılmasını təmin edir, təchizat prosesini optimallaşdırır. | Zavodlar, fabriklər, tikinti materialları istehsal edən müəssisələr. |
| **Tikinti podratçıları** | Tikinti işlərini həyata keçirir, texniki tələblərə uyğun infrastruktur obyektlərini inşa edir. Layihənin icrası üçün işçi qüvvəsi və lazımi materiallarla təmin olunmasını həyata keçirir. Tikinti | Podratçı və ixtisaslaşmış tikinti şirkətləri. |

| | | |
|---|---|---|
| | keyfiyyətinə və təhlükəsizlik standartlarına riayət olunmasına nəzarət edir. | |
| **Loqistika şirkətləri** | Tikinti materiallarının vaxtında çatdırılmasını təmin edir, səmərəli təchizat şəbəkəsi yaradır və logistika proseslərini idarə edir. | Daşımalar, anbardarlıq və inventar idarəçiliyi xidmətləri göstərən şirkətlər. |
| **Nəqliyyat şirkətləri** | Tikinti sahəsinə lazım olan maddi-texniki resursların daşınmasını təmin edir. | Dövlət və özəl nəqliyyat şirkətləri. |

*Mənbə:Aparılan tədqiqatın məqsəd və vəzifələrinə uyğun müəllif tərəfindən tərtib edilib.*

Obyektin xüsusiyyətlərindən asılı olaraq, tikintinin müasir praktikasında sifarişçinin xüsusi tələbləri və investorun maliyyə imkanlarına uyğun olaraq investisiya-tikinti layihəsinin iştirakçıları arasında müxtəlif iqtisadi münasibətlər sxemləri tətbiq edilir. Hər bir layihə üçün uyğun olan bu iqtisadi münasibətlər sxemi, tikinti podratı müqaviləsi tərəflərinin xüsusiyyətlərini və məzmununu, eləcə də qiymət əmələ gəlmə prosesini müəyyənləşdirərək layihənin daha səmərəli və uğurlu icrasını təmin edir. Bu yanaşma, layihənin hər mərhələsində qarşılıqlı razılaşmaların düzgün qurulmasını və tərəflərin gözləntilərinin dəqiq qarşılanmasını mümkün edir.




**Şəkil 1. İnvestisiya–tikinti layihəsi iştirakçıları arasında istehsal münasibətlərinin prinsipial sxemi (ənənəvi sxemin təkmilləşdirilməsi əsasında müəllif tərəfindən tərtib edilib).**

Tədqiqat işində investisiya-tikinti layihəsi iştirakçıları arasında iqtisadi münasibətlər sxeminin formaları tətbiq edilmiş və daha ətraflı baxılmışdır.

**Tədqiqat işinin "Azərbaycanın tikinti sektorunda müasir iqtisadi münasibətlərin formalaşmasının təhlili" adlı ikinci fəslində** tikintidə iqtisadi münasibətlərin quruluşuna uyğun təşkilati-iqtisadi formaların müəyyənləşməsi və inkişafı, tikinti iqtisadi münasibətləri sistemində mənfəət və gəlirlərin formalaşması və bölgüsünün təhlili, eləcə də tikinti sahəsində bazar etibarlığı səviyyəsinin müəyyən edilməsi metodikası və onun təhlili aparılmışdır.

Tikinti sektorunda müasir iqtisadi münasibətlər çərçivəsində mənfəət və gəlirlərin formalaşması və bölgüsü təhlil edilmiş, bazarın etibarlılıq səviyyəsi araşdırılmış və əsas göstəricilər ümumiləşdirilmişdir.

İşdə müasir iqtisadi münasibətlər şəraitində investisiya-tikinti layihələrinin idarə olunması kompleks şəkildə təhlil edilmiş, tikinti şirkətinin həyat tsikli kontekstində idarəetmənin əsas mənbələri müəyyənləşdirilmişdir.

İnvestisiya-tikinti layihələrinin idarəetmə sisteminin təhlili çərçivəsində aşağıdakı qrup göstəricilər nəzərdən keçirilməlidir:

- şirkətin ümumi maliyyə-iqtisadi fəaliyyəti;
- ayrı-ayrı investisiya layihələrinin maliyyə və iqtisadi səmərəliliyi;
- hər bir layihənin ümumi nəticəyə təsiri və əlavə dəyəri.

Kompleks sistemin özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, o, həm ümumi iqtisadi reallığı, həm də ayrı-ayrı təsərrüfat subyektlərini əhatəli şəkildə öyrənməlidir. Bu sistemin əsas prinsipləri vahid məqsədin müəyyən edilməsi, tamamlıq, sistemlilik və qarşılıqlı razılaşmadır.

İdarəetmə sisteminin metodoloji əsasını iqtisadi proseslərin və nəticələrin öyrənilməsində istifadə olunan metod və üsullar toplusu təşkil edir. Təşkilati idarəetmə sistemində isə bu əsas təhlilin metodları, obyektləri və subyektləri ilə tamamlanır. Bütün bu amillər birlikdə maliyyə və idarəetmə sisteminin təhlilini əhatə edən konseptual modeli formalaşdırır.

Kompleks təhlilin konseptual modelinin formalaşdırılmasında əsas yanaşmalardan biri, tikinti şirkətinin idarəetmə sisteminin inteqrasiya olunmuş modellərindən biri ilə maksimum əlaqələndirilməsidir. Bu yanaşma çərçivəsində keyfiyyətin idarə edilməsi sisteminin kompleks tətbiqi və digər vacib idarəetmə mexanizmləri nəzərə alınmalıdır. Belə bir təhlil yanaşması şirkət idarəetməsində təkcə mövcud "qüsurları" aşkar etməyə deyil, həm də idarəetmə sistemini çevik şəkildə optimallaşdırmağa, biznesin taktikasını və strategiyasını dinamik olaraq dəyişməyə imkan yaradır. Bununla yanaşı, bu yanaşma şirkətin dayanıqlığını artırır, bazar şəraitinə daha sürətli uyğunlaşmasını təmin edir və ümumi rəqabət qabiliyyətini gücləndirir.

İdarəetmə sisteminin kompleks təhlilini apararkən, konkret şirkətin hansı həyat tsikli mərhələsində olduğunu müəyyənləşdirmək vacibdir (şəkil 2). Bir çox iqtisadçılar haqlı olaraq vurğulayırlar ki, bu amilin nəzərə alınması müasir iqtisadi təhlildə mühüm rol oynayır. Onlar bildirirlər ki, təşkilati-iqtisadi sistemin analizi qeyri-xətti dinamikaya əsaslanmalıdır.




**Şəkil 2. Müasir iqtisadi münasibətlər sistemində tikinti şirkətinin həyat tsikli dövrü ərzində idarəetmə sisteminin təhlilinin mərhələləri (müəllif tərəfindən işlənilmişdir).**

Qeyri-xətti davranış müxtəlifliyi isə idarəetmə funksiyalarının sabit olmamasını, eləcə də nizamsız trayektoriyaların mövcudluğunu nəzərdə tutur. Bu yanaşma, şirkətin inkişaf prosesini daha dəqiq qiymətləndirməyə, strateji qərarların daha çevik və effektiv qəbul edilməsinə imkan yaradır.

Yeni iqtisadi münasibətlər şəraitində şirkət rəhbərləri mənfəətin proqnoz təhlilinə xüsusi diqqət yetirirlər. Onlar gələcəkdə əldə edilə biləcək mənfəətin müxtəlif ssenarilərini müqayisə edərək, ən əlverişli variantları müəyyən etməyə çalışırlar.

Müasir iqtisadi münasibətlər sistemində mənfəət və zərərin formalaşması tədqiqat işində verilir. Gəlir və mənfəət göstəricilərinin təhlili isə təkcə şirkətin daxili idarəetmə proseslərində deyil, həm də xarici maraqlı tərəflər – investorlar, biznes partnyorları və digər informasiya istifadəçiləri üçün mühüm əhəmiyyət kəsb edir. Bu təhlil, eyni zamanda, aktivlərin effektiv idarə olunmasına və strateji qərarların daha əsaslı şəkildə qəbul edilməsinə imkan yaradır.

Praktikada "gəlir" və "qazanc" anlayışları çox zaman sinonim kimi işlədilir. Lakin bu tam doğru deyil. Fəaliyyətin adi növlərində gəlir dedikdə, məhsul və əmtəələrin satışı, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi nəticəsində əldə edilən fayda nəzərdə tutulur. Mühasibat uçotu baxımından isə qazanc, müəyyən pul vəsaitlərinin, digər əmlakın və ya debitor borclarının eyni məbləğdə daxil olması kimi qəbul edilir. Bu anlayışlar arasındakı fərqin düzgün dərk edilməsi maliyyə hesabatlarının dəqiq aparılması və iqtisadi təhlilin effektiv həyata keçirilməsi üçün vacibdir.

Dissertasiya işində iqtisadi münasibətlər sistemində kommersiya şirkətinin gəlirləri və xərclərinin strukturu sxem şəklində verilir.

Ufiqi və mütərəqqi vergiqoymadan əvvəl mənfəətin məbləğinin dəyişməsi mütləq və nisbi göstəricilərə əsasən aparılır və aşağıdakı düsturla müəyyən edilir.

$$M_r = M_s + G_ə - X_ə + R_g - R_x$$

$M_r$ – vergiqoymadan əvvəl mənfəət ( zərər); $M_s$ – satışdan alınan mənfəət (zərər); $G_ə$ – əməliyyat gəlirləri; $X_ə$ – əməliyyat xərcləri; $R_g$ –reallaşdırmadan kənar gəlirlər; $R_x$ –reallaşdırmadan kənar xərclər

Araşdırmalar göstərir ki, "Dolşasaray" tikinti şirkətində təhlil aparılan il ərzində mənfəət 387,04 min manat və ya 31,9% azalmışdır. Bazis ilində satışdan əldə edilən mənfəətin ümumi payı 76,1% təşkil edirdisə, mənfəətin 19,37%-i vergiqoymadan əvvəlki göstərici olmuşdur. Bunun nəticəsində reallaşdırmadan kənar gəlirlər və xərclər üzrə müsbət saldo formalaşmışdır.

Lakin reallaşdırmadan kənar gəlirlərin və xərclərin müsbət təsiri əməliyyat gəlirləri və xərclərinin mənfi saldosunun təsirindən zəifləyərək 4,5%-ə qədər enmişdir (cədvəl 3).

**Cədvəl 3**

**"Dolçasaray" tikinti şirkətinin iki il üçün mənfəətinin tərkibi**

| Göstərici | Bazis dövrü (2022-ci il) | | Hesabat dövrü (2023-cü il) | | Kənarlaşma | | Dəyişilmə tempi,% |
|---|---|---|---|---|---|---|---|
| | Min manat | Xüsusi çəkisi, % | Min manat | Xüsusi çəkisi, % | Min manat | Xüsusi çəkisi, % | |
| Satışdan alınan gəlir | 921,3 | 76,1 | 712,1 | 86,46 | -209,2 | +54,05 | 22,71 |
| Əməliyyat gəlirlərinin və xərclərinin saldosu | -54,73 | -4,5 | -82,93 | -10.0 | -28,2 | -7,2 | 52 |
| O cümlədən: -əməliyyat gəlirləri | 23,0 | 1,89 | 21,23 | 2,57 | -1,77 | 0,45 | -7.69 |
| -əməliyyat xərcləri | 77,73 | -6,42 | 104,16 | -12,6 | 26,41 | -6,82 | 33,9 |
| Reallaşdırmadan kənar gəlirlərin və xərclərin saldosu | 234,6 | 19,37 | 28,56 | 3,46 | 206,04 | -53,3 | 87,8 |
| O cümlədən: -reallaşdırmadan kənar gəlirlər | 279,6 | 23,09 | 43,65 | 5,29 | -235,95 | -60,9 | 84,3 |
| -reallaşdırmadan kənar xərclər | 45,0 | -3,71 | 15,09 | -1,83 | -29,91 | -2 | 66,4 |
| Vergiqoymaya qədər mənfəət (zərər) | 1210,63 | 100,0 | 823,59 | 100,0 | -387,04 | 100,0 | 31,9 |

*Mənbə: Cədvəl "Dolçasaray" tikinti şirkətinin materiallarına əsasən müəllif tərəfindən tərtib edilib hesablanmışdır.*

Bölüşdürülməmiş mənfəət şirkətin nizamnaməsinə uyğun olaraq istifadə edilir. Bu vəsait hesabına səhmdar cəmiyyətin dividentləri ödənilir, yığım fondu, istehlak və ehtiyat fondları formalaşdırılır. Həmçinin mənfəətin bir hissəsi xüsusi dövriyyə kapitalının artırılmasına və digər məqsədlərə yönəldilir.

Fəaliyyəti təhlil edilən "SKS" şirkətində 2023-cü ildə dividentlərə ödənilməsinə mənfəətin 20,15%, yığım fonduna – 41,36%, istehlak fonduna -29,06% və ehtiyat fonduna -10,41% istifadə edilmişdir (cədvəl 4) .

**Cədvəl 4**

**"SKS" tikinti şirkətində xalis mənfəətin istifadə edilməsi haqqında məlumatlar, min manat.**

| Göstəricilər | Plan | Fakt | Kənarlaşma +, - |
|---|---|---|---|
| 1. Bölüşdürülməmiş xalis mənfəət | 1230 | 1315 | +85 |
| 2. Mənfəətin istifadəsi<br>- dividendlərin ödənilməsinə | 247 | 265 | +18 |
| - yığım fonduna | 484 | 544 | +60 |
| - istehlak fonduna | 368 | 369 | +1,0 |
| -ehtiyat fonduna | 131 | 137 | +6,0 |
| 3. Bölüşdürülən mənfəətdə pay<br>- ödənilən dividendlər | 23 | 23 | - |
| -yığım fondu | 43 | 44 | +1,0 |
| -istehlak fondu | 32 | 30 | -2,0 |
| -ehtiyat fondu | 12 | 12 | - |

*Mənbə: Cədvəl "SKS" tikinti şirkətinin materiallarına əsasən müəllif tərəfindən tərtib edilib hesablanmışdır.*

Fondların formalaşmasının təhlili göstərir ki, yığım və istehlak fondlarına ayırmaların həcmini əsasən bölüşdürülməmiş xalis mənfəətin dəyişməsi və müvafiq fondlara yönəldilən vəsaitlərin payı müəyyən edir.

Tikinti şirkətinin bazar etibarlılığı onun müştərilər, tərəfdaşlar, investorlar və ictimaiyyət arasında yaratdığı inam və nüfuz səviyyəsi ilə ölçülür. Bu etibarlılıq, şirkətin təqdim etdiyi məhsul və

xidmətlərin keyfiyyəti, öhdəliklərini vaxtında yerinə yetirməsi, maliyyə sabitliyi və bazardakı rəqabət üstünlüyü kimi amillərlə bağlıdır. Bazar etibarlılığı, tikinti şirkətinin davamlı inkişafını, bazardakı mövqeyini və gələcək perspektivlərini müəyyən edən əsas göstəricilərdən biridir. Yüksək etibara malik şirkət müştərilər, tərəfdaşlar və investorlar üçün daha cəlbedici olur ki, bu da bazar payının genişlənməsinə və uzunmüddətli rəqabət üstünlüyü əldə etməsinə imkan yaradır. Şirkət bazardakı etibarını artırmaq üçün müştəri məmnuniyyətinə və maliyyə dayanıqlılığına xüsusi diqqət yetirməli, eyni zamanda sosial məsuliyyət və innovasiya strategiyalarını inkişaf etdirməlidir.

Bazar etibarlılığının kəmiyyətcə qiymətləndirilməsi xüsusi göstəricilər sistemi əsasında müəyyən edilir və bu göstəricilər mövcud bazar konyunkturunu, eləcə də tikinti şirkətinin maliyyə-iqtisadi asılılıq şəraitində fəaliyyət səmərəliliyini əks etdirir.

Tikinti şirkətinin bazar etibarlılığının dəqiq müəyyən edilməsi üçün qiymətləndirmə prosesinin iki əsas mərhələdə aparılması məqsədəuyğundur: iqtisadi etibarlılıq və maliyyə etibarlılığı. İqtisadi etibarlılıq, şirkətin bazar tələblərinə uyğunluğunu, dayanıqlılığını və rəqabət qabiliyyətini göstərirsə, maliyyə etibarlılığı onun maliyyə sabitliyi, borc öhdəliklərini yerinə yetirmə qabiliyyəti və investisiya cəlbediciliyi ilə ölçülür. Bu yanaşma, tikinti şirkətinin bazarda nə dərəcədə möhkəm mövqe tutduğunu və gələcək inkişaf perspektivlərini daha dəqiq təhlil etməyə imkan verir.

Tikinti şirkətinin bazar etibarlılığının qiymətləndirilməsində istifadə edilən göstəricilərin əsas qrupları şəkil 3-də verilmisdir.

Ekspress-təhlilin həyata keçirilməsi üçün tikinti şirkətinin bazar etibarlılığını xarakterizə edən ümumiləşdirilmiş göstəricilərin seçilməsi, hesablanması və təhlili vacibdir. İlk yanaşma çərçivəsində bu təhlildə aşağıdakı əsas göstəricilərdən istifadə edilməsi tövsiyə olunur:

1. Şirkətin tikinti (əmtəə) məhsulunun nisbi rəqabət qabiliyyətinin inteqral göstəricisi əmsalı (əσtik) – bu əmsal şirkətin bazarda rəqabət üstünlüyünü və məhsulunun digər bazar iştirakçılarına nisbətən mövqeyini qiymətləndirməyə imkan verir.

2. Şirkətin xalis mənfəəti (Mxal) - bu göstərici şirkətin fəaliyyətinin maliyyə nəticəsini əks etdirir və onun dayanıqlılığının əsas göstəricilərindən biridir.

3. Səhmlərin qiymətinin təyin edilməsi əmsalı (Əsəhm) – şirkətin səhmlərinin bazardakı dəyərinin müəyyən olunması və investisiya cəlbediciliyinin qiymətləndirilməsi üçün istifadə edilir.

4. Səhmlərə mənfəət norması (Nsəhm) – səhmdarların əldə etdiyi gəliri ölçən göstəricidir və investisiya perspektivlərinin təhlili üçün əhəmiyyətlidir.




**Şəkil 3. Yeni iqtisadi münasibətlər sistemində bazar etibarlılığının qiymətləndirilməsinin göstəricilər sistemi (müəllif tərəfindən işlənilmişdir).**

Bu göstəricilərin hər biri şirkətin bazar etibarlılığını dəyərləndirmək üçün mühüm əhəmiyyət daşıyır və kompleks yanaşma vasitəsilə şirkətin maliyyə dayanıqlılığı, investisiya cəlbediciliyi və rəqabət qabiliyyəti barədə daha dolğun təsəvvür yaradır.

Tikinti məhsulunun rəqabət qabiliyyəti onun bazarda digər məhsullardan fərqlənmə dərəcəsi və müştərilərin tələblərinə uyğunluğu ilə müəyyən olunur. Bu göstərici məhsulun keyfiyyəti, funksionallığı, qiyməti və marketinq strategiyasının effektivliyi kimi bir neçə əsas amilin qarşılıqlı təhlili əsasında qiymətləndirilir.

Rəqabət üstünlüyünü qorumaq və daha da möhkəmləndirmək üçün şirkətlər innovativ texnologiyalardan istifadə etməli, bazar tendensiyalarını izləməli və müştəri ehtiyaclarını dərindən araşdırmalıdırlar. Bununla yanaşı, ekoloji standartlara cavab verən, dayanıqlı və enerji səmərəli məhsulların istehsalı da bazardakı mövqeyin gücləndirilməsinə əhəmiyyətli töhfə verir.

Bazar konyunkturasının təhlili tikinti şirkətlərinə strateji qərarlar qəbul etmək və rəqabət mühitində mövqelərini möhkəmləndirmək üçün imkan yaradır. Şirkətlər daxili potensiallarını artıraraq, bazar tələblərinə uyğun çevik yanaşmalar tətbiq etməklə və rəqəmsal texnologiyalardan istifadə etməklə rəqabət üstünlüyü əldə edə bilərlər. Bu yanaşma, həmçinin bazar risklərinin azaldılması və davamlı inkişafın təmin edilməsi üçün zəruridir.

Maliyyə-iqtisadi göstəricilərin təhlili şirkətin hazırkı vəziyyətini qiymətləndirmək, səmərəliliyini artırmaq və dayanıqlılığını təmin etmək üçün mühüm əhəmiyyət kəsb edir. Təhlilin nəticələrinə əsasən, şirkət öz fəaliyyət planını optimallaşdıra və bazar şəraitində daha rəqabətqabiliyyətli mövqe tuta bilər.

İnflyasiya, yəni qiymət səviyyəsinin ümumi artımı, şirkətin dəyər göstəricilərinə ciddi təsir göstərə bilər. Bu təsirlər həm maliyyə göstəricilərinin nominal və real dəyərlərində fərqlilik, həm də şirkətin fəaliyyətinə dair qərarların effektivliyində dəyişikliklərlə özünü büruzə verir. Təhlil zamanı inflyasiyanın şirkətin gəlirləri, xərcləri, aktivlərinin dəyəri və digər maliyyə göstəricilərinə təsirini qiymətləndirmək əsas əhəmiyyət kəsb edir. İnflyasiya şirkətin dəyər göstəricilərinə həm müsbət, həm də mənfi təsir göstərə bilər. Bu təsirlər şirkətin gəlirləri, xərcləri, aktivləri və borcları arasında balansın necə qurulduğundan asılıdır. Şirkətlər inflyasiyanın təsirlərini idarə etmək üçün xərcləri optimallaşdırmalı, qiymət siyasətini tənzimləməli və investisiya portfelini diversifikasiya etməlidirlər.

Bu göstəricilər yalnız məhsulun iştirakçıları və investorların (sifarişçilərin) geniş spektrini nəzərə alaraq bazardakı xarici fəaliyyətin əsas aspektlərini əks etdirmir, həm də gələcəkdə həmin nisbətin etibarlılığını və davamlılığını müəyyənləşdirir. Bu, bazar

münasibətlərinin və iqtisadi proseslərin proqnozlaşdırılmasını təmin edən, strateji qərarların düzgünlüyünü artıran amildir.

Tikinti şirkətinin bazar etibarlılığının ətraflı işlənmiş təhlilində göstəricilər qruplarına işdə ardıcıl baxılır.

Tədqiqat işində iqtisadi münasibətlər sistemində bazar etibarlılığı səviyyəsinin müəyyən edilməsi və təhlili alqoritmi verilmişdir.

**Dissertasiya işinin "Azərbaycanın tikınti sahəsində iqtisadi münasibətlərin təkmilləşdirilməsinin əsas istiqamətləri" adlanan üçüncü fəslində t**ikinti sahəsində istehsal - iqtisadi münasibətlərin təkmilləşdirilməsində iqtisadi tənzimləmənin vəzifələri və istiqamətləri, tikintidə iqtisadi münasibətlər sistemində podrat bazarlıqları mexaniziminin inkişafı, tikintidə bağlaşma münasibətləri sisteminin təkmilləşdirilməsi aparılmışdır

İşdə tikintinin idarə edilməsinin istehsalın ixtisaslaşdırılması və təmərküzləşməsi səviyyəsi ilə xarakterizə olunması, kooperativləşdirmənin və kombinasiyanın səviyyələri müəyyən edilmişdir.




**Şəkil 4. İqtisadi münasibətlər sistemində podrat işlərinin yerləşdirilmə üsullarının təsnifatı (müəllif tərəfindən işlənilmişdir).**

Bu yanaşmalar, tikinti sektorunun daha sistemli və səmərəli şəkildə işləməsini təmin edir. İxtisaslaşma və təmərküzləşmə, resursların daha məqsədli şəkildə istifadə olunmasına və böyük layihələrin həyata keçirilməsinə imkan yaradır, kooperativləşdirmə və kombinasiyalar isə tərəfdaşların bir araya gələrək daha böyük miqyasda layihələrin həyata keçirilməsinə şərait yaradır.

Podrat işlərinə sifarişlərin yerləşdirilməsi üsullarını şəkildəki kimi təsnifləşdirmək olar (şəkil 4).

İqtisadi münasibətlər sistemində müsabiqənin təşkili üzrə fəaliyyət və əsas müsabiqə prosedurları şəkil 5-də əks etdirilmişdir.




**Şəkil 5. İqtisadi münasibətlər sistemində podrat işlərində müsabiqəsinin aparılmasının təşkili və üsulları (müəllif tərəfindən işlənilmişdir).**

Qərəzli iddiaçılardan (tələb edənlərdən) sifarişçini müdafiə etmək məqsədilə podrat bazarlıqları zamanı podratçıya müəyyən tələblər qoyulur ki, müsabiqə sifarişi (ərizə) təmin edilsin. Bu təminat bank zəmanəti, girov və ya başqa bir zəmanət formasında ola bilər. Zəmanətlər müsabiqə sənədlərində göstərilən qaydalara uyğun olaraq, iddiaçılar tərəfindən vaxtında təqdim edilməlidir. Müsabiqənin nəticələri sifarişçi tərəfindən təsdiq olunduqdan sonra, həmin müsabiqə tamamlanmış hesab olunur.

Qiymətlərin formalaşması metodu üzrə tikinti bağlaşmalarının (sövdələşmələrinin) təsnifatı işdə sxem şəklində göstərilir. Bağlaşma, müəyyən bir tikinti layihəsi və ya xidmət üçün bağlanan müqavilə mənasını daşıyır. Bu termin daha çox tikinti və mühəndislik layihələrinə yönəlib və həmin sahələrdə işlənilir.

Tədqiqatın gedişində tikinti sahəsində iqtisadi münasibətlərin formalaşması və təkmilləşdirilməsinə yönəldilən elmi cəhətdən əsaslandırılmış və ümumiləşdirilmiş yeni nəticə və tövsiyyələrin ən mühümləri aşağıda verilir:

1. İqtisad elminin müəyyən etdiyi yeni istehsal münasibətlərinin məhsuldar qüvvələrinin inkişafını sürətləndirə bilməsi haqqında nəzəri-metodloji bünövrəyə əsaslanaraq Azərbaycan iqtisadiyyatının mühüm maddi istehsal sahəsi olan tikinti sahəsində iqtisadi münasibətlərin daima təkmilləşdirilməsi əsasında ölkənin tikinti məhsuluna daima artan təlabatını ödəməyə imkan verən səviyəyə qaldırlmasında iqtisadi münasibətlərin təkmilləşdirlməsi obyektiv zərurətə çevrilmişdir. Tikinti məhsulları, xüsusəndə mənzil tikintisi bazarında qiymətlərin kifayət qədər yüksək olması, satışa təklif olunan mənzillərin yaşayışa tam hazır olmaması kimi faktlar göstərir ki, tikinti məhsulları bazarında tələb və təklif arasında çox böyük uygunsuzluq vardır ki, bunun da aradan qaldırlması üçün tikinti sahəsinin sürətli inkişafına imkan yarada biləcək iqtisadi münasibətləri formalaşdırmaq və dövlətin tənzimləyici tədbirlərinin məzmununu dəyişmək gərəkdir.

2. Milli iqtisadiyyatın bir sahəsi kimi tikintinin əsas xüsusiyyəti onun hazır məhsulunun növü və istehsal mərhələsinin hər bir tikinti məhsulu üzrə müxtəlifliyi ilə müəyyənləşməsindədir ki, bu da hər bir tikinti məhsulu üzrə tətbiq olunan əməyin, tikinti-istehsalının

təşkilinin, maliyyə resurslarının bölgüsünin və texniki təminatını fərqli olmasına səbəb olur.Tikinti məhsulunun istehsalı prosesində iştirakçılar arasında məhsulun xüsusiyyətindən irəli gələn fərqli iqtisadi münasibətlər yaranır və hər bir yeni məhsulda fərqli iqtisadi münasibətin olmasını şərtləndirir ki, bu münasibətlərin tərəflərin maraqlarını düzgün əks etdirməsi tikintinin inkişafında çox mühüm rol oynayır.

3. Tikinti sahəsinin digər istehsal sahələrindən əsas fərqlərindən biri də, tikinti istehsalı prosesinin lap başlanğıcında, istehsal prosesinin zəruri şərti kimi, torpaq sahibinin, tikinti məhsulunun istehsalçısının və bu istehsalın baş verməsi üçün dövlətin müvafiq icra hakimiyyəti orqanlarının razılıgı olmalıdır və bu razılıq hər bir ayrıca istehsal aktı üçün təkrar- təkrar alınmalıdır. Məhz bu xüsusiyyət, tikintinin inkişaf sürətinə öz təsrini göstərməkdədir. Baxmayaraq ki, son dövrlərdə dövlət tənzimləməsi nəticəsində bu razılıgı verən dövlət orqaqnlarının sayı minimuma endirilmişdir, lakin tikintinin inkişaf sürəti bununla da artmamışdır.

4. Tikinti sahəsinin sürətli inkişafına imkan verən təsərrüfat mexanizmi, sahədə yaranan gəlirlərin bölgüsü üsulu ilə müəyyənləşir. Tikinti sahəsində yaranan gəlirlər müvafiq iqtisadi formalar, mənfəət, divident, faiz, dövlət vergiləri formalarında bölüşdürülsə də, real bölgü bu formalardan kəskin fərqlənir, belə ki, tikinti istehsalına başlanmasına icazə verən tərəflər öz gəlirlərini, lap əvvəldən, istehsala başlamazdan qabaq, yəni icazə sənədinin imzalayarkən götürürlər. Tədqiqatın gedişatında, tikinti sahəsində gəlirlərin bölüşdülməsi prosesi təhlil olunaraq müəyyən edilmişdir ki, rəsmi vergilərdən qabaq tikinti şirkətlərinin gəlirləri onları qane edəcək səviyyəyə yaxındır, lakin vergi ödənişindən sonra gəlirlər inkişafa stimul yaratmır.

5. Tikinti obyektinin xarakterindən asılı olaraq podrat işlərinə sifarişlərin müsabiqə yolu ilə cəlb olunması tikinti işlərində (şirkətin) rəqabət qabiliyyətliliyi artırır və investisiya-tikinti layihə iştirakçılarının maraqlarına xidmət edir. Tikinti sahəsində tikinti məhsulunun əsas hissəsinin sifarişçisi dövlət öldugundan, dövlət sifarişlərinin yerləşdirilməsinin xüsusi mexanizmi, tender keçirilməsi təcrübəsinin təkmilləşdirlməsinə çox böyük ehtiyac vardır.

Baxmayaraq ki, Azərbaycanda da tikinti sahəsində dövlət sifarişləri beynəlxalq təcrübənin sxeminə uyğun həyata keçirilir, lakin bu tenderlər keçirilməsinə kənardan müdaxilələrin mövcud olması həm dövlət vəsaitlərinin səmərəsiz məsrəf olunmasına, həm də həmin məhsula ehtiyacların ödənilməməsinə səbəb olur.

6. Tikinti məhsuları, xüsusəndə mənzil tikintisi bazarında, təklifin az olması səbəbindən mənzillərin qiymətlərinin yüksək olması əhalinin mənzilə kəskin tələbi olan və orta əmək haqqı səviyyəsində gəlirləri olan hissəsinin bu məhsula olan ehtiyaclarını ödəmək istiqamətində dövlət son 10 il ərzində müxtəlif layihələr həyata keçirilmişdir . Bunlardan ən mühümü və tikinti məhsulları bazarına real təsiri olan Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) layihəsidir. MİDA-nın mənzil bazarına təklif etdiyi mənzillərin qiymətləri, həm yerləşdiyi ərazi, həm də tam təmirli olması baxımından özəl mənzil tikinti şirkətlərini kifayət qədər üstələmişdir. Bu rəqaqbət üstünlüyünün kökündə isə dövlətin MİDA üçün əlverişli istehsal şəraitinin yaradılması dayanır ki, bu şəraitin elementləri isə, torpaq sahəsinin ayrılmasına, tikintiyə icazə alınmasına, binaların layihələrinin memarlıq şəraitinə uygunluguna icazə alınmasına, tikinti normalarına uygunluq sertifikatının alınmasına, elektrik, su, qaz şəbəkəsinə qoşulmasına icazə alınmasına manelərin olmamasıdır. Odur ki, tikinti sahəsinin sürətli inkişafını təmin edəcək bu maneələrin, dövlətin adından və ona verilmiş səlahiyyətlərdən öz məqsədləri üçün istifadə edilməsi halların aradan qaldırlması əsasında özəl tikinti şirkətləri üçün eyni iqtisadi şəraitin yaradılması zərurətdir.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilən nəticə və təkliflər dərc olunmuş aşağıdakı məqalələrdə öz əksini tapmışdır:**

1. Binnətov Y.C. “Tikinti sahəsində iqtisadi munasibətlər” //Azərbaycan Elmi- Tədqiqat Kənd Təsərrufatinin İqtisadiyyati və Təşkili İnstitutunun Elmi Əsərləri №3, Bakı- 2012.s.38-43

2. Binnətov Y.C. “İqtisadi münasibətlər sistemində tikintidə informasiya texnologiyaları” // Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş

Gənc Tədqıqatcıların I Beynəlxalq Elmı Konfransı. Qafqaz universiteti. 25-26 aprel. BAKI 2013, s.60-63

3. Binnətov Y.C. "İnvestisiya – tikinti fəaliyyəti iştirakçıları arasında iqtisadi munasıbətlər" //Azərbaycan Elmi- Tədqiqat Kənd Təsərrufatinin Iqtisadiyyati Və Təşkili Institutunun Elmi Əsərləri."Elmi- nəzəri jurnal" №4, BAKI – 2013, s.107-112

4. Binnətov Y.C. "Tikintidə iqtisadi münasibətlər sistemində mənfəət və gəlirlərin təhlili" //"Su təsərrüfatı, mühəndis kommunikasiya sistemlərinin müasir problemləri və ekologiya" mövzusunda Beynəlxalq Elmi-Praktiki konfransın materialları. Bakı, AzMİU, 14-15 aprel 2014,s.513-516

5. Binnətov Y.C. "İqtisadi münasibətlər sistemində tikintidə bazar etibarlılığının kompleks qiymətləndirilməsi və indeksin müəyyən edilməsi" "Neft -kimya sənayesində qəza risklərinin qiymətləndirilməsi və ekoloji təhlükəsizlik problemləri" mövzusunda beynəlxalq elmi- praktik konfransın materiallari. 4-5 dekabr, AzMİU, Bakı- 2014, s.70-73

6. Binnətov Y.C. "Tikinti sahəsində istehsal-iqtisadi münasibətlərin formalarının inkişafı" //Azərbaycan Milli Elmlər Akademiyası. İqtisadiyyat İnstitutu. ELMI ƏSƏRLƏR. IV buraxılış. Bakı- 2014, s.346-349

7. Binnətov Y.C. "Podrat bazarlıqları mexanizminin inkişafi- iqtisadi münasibətlər sisteminin əsasında"//Azərbaycan Universiteti. İpək yolu. Birinci buraxiliş, Bakı -2015,s.69-76

8. Биннатов Ю. Д.Формирование строительных контрактов в системе экономических отношений. // Экономика и предпринимательство № 8 (ч.2) 2015.s.503-508

9. Binnətov Y.C. İqtisadi münasibətlər sistemində tikintidə podrat bazarlıqlarının aparılmasında müsabiqənin rolu.// Gobustone" məsaməli beton blokların istifadəsinin təşkilati-texnoloji problemləri mövzusunda Elmi Praktiki Konfransın materialları, Bakı -26 noyabr 2015-ci il, s.19-22

10. Binnətov Y.C. Tikintidə iqtisadi münasıbətlər sistemində bazar etibarlılığı səviyyəsinin müəyyən edilməsi metodikası və təhlili.// Elmi Əsərlər № 2 , Bakı, AzMİU -2015,s.82-89

11. Binnətov Y.C. “Müasir iqtisadi münasibətlər şəraitində tikinti istehsalının təmərküzləşməsi”.//“Bina və qurğuların istilik-soyuqluq təchizatında enerji effektivli sistemlər” mövzusuna həsr olunmuş Beynəlxalq Elmi-Praktiki Konfransın materialları. Bakı, AzMİU -24-25 iyun 2016, s.96-100

12. Binnətov Y.C. “Tikinti layihəsinin investisiya qabağı mərhələsində istehsal münasibətləri və təşkilat formalarının müəyyən edilməsi”. //“Müasir inşaatda ekologiya və onun enerji effektivliyi problemləri” mövzusuna həsr olunmuş Beynəlxalq Elmı Praktiki konfrans. 24-25 noyabr. Bakı, AzMİU -2016,s.231-233

13. Binnətov Y.C. “İnvestisiya-tikinti layihəsinin reallaşdırılmasında bağlaşma münasibətlərinin idarə edilməsi”. // “İstilik energetika qurğularının tullantılarından ətraf mühitin mühafizəsinin mühəndis problemləri” mövzusunda Beynəlxalq Elmi Konfransın materialları .15-16 dekabr, Bakı, AzMİU – 2016,s.310-313

14. Binnətov Y.C. Tikinti müəssisələrində tədavül fondlarının idarə olunması. // “Müasir istilik təchizatinda proqresssiv texnologiyalar” mövzusunda Respublika Elmi – Praktiki Konfransin materiallari.Bakı , AzMİU, 8-9 iyun 2017,s.117-120

15. Binnətov Y.C. Tikintidə iqtisadi münasibətlər sistemində balans mənfəətinin bölüşdürülməsi. // Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksinin inkişaf perspektivləri mövzusunda Respublika Elmi – praktiki Konfransın materiallari. 14-15 dekabr Bakı,AzMİU- 2017, s.117-119

16. Binnətov Y.C Tikintidə bağlaşma münasibətlərinin reallaşdirilmasinda risklərin bölüşdürülməsi metodu. // Building innovations. Полтава 24-25 may 2018.s.355-358

17. Binnətov Y.C. İqtisadi münasibətlər şəraitində investisiya mühitinə marketinqin təsiri. // “İnşaatda informasiya texnologiyaları və sistemlərinin tətbiqi imkanları və perspektivləri” mövzusunda Beynəlxalq Elmi-Praktiki konfrans. Bakı AzMİU, AMEA 5-7 iyul 2018-ci il,s.315-318

18. Binnətov Y.C. Tikintidə iqtisadi münasibətlər şəraitində idarəetmə təhlilinin formalaşması**.** // “Azərbaycanda iqtisadi

islahatların həyata keçirilməsinin aktual problemləri" mövzusunda Respublika Elmi – praktiki Konfransın materiallari. 18 dekabr, Bakı, AzMİU- 2018,s.215-217.

19. Alizade Ш.И Binnatov Ю.Д. Инвестиции в строительный сектор и их структура в Азербайджанской Республике.//Инвестиции, Строительство, Недвижимость Как Драйверы Социально-Экономического Развития Территории И Повышения Качества Жизни Населения материалы IX Международной научно-практической конференции 12–15 марта 2019 г. Томск .s.112-117,

20. Binnətov Y.C Müasir şəraitdə dövlətin investisiya siyasətinin tikintinin inkişafına təsiri. // "Sənayenin müasir vəziyyəti və inkişaf problemləri: texnoparkların və sənaye məhəllələrinin ölkənin iqtisadi inkişafına təsiri" mövzusunda Respublıka Elmı – Praktıkı Konfransın materıalları. 30 aprel Bakı, AzMİU-2019.s.105-107.

21. Binnətov Y.C. İstehlak məhsulları bazarında alıcıların qiymətə həssaslığını müəyyən edən amillər.//"İşğaldan Azad Olunmuş Ərazilərdə Mühəndis İnfrastrukturunun Müasir Texnologiyalar Əsasında Yenidən Qurulma Məsələləri" Mövzusunda Respublika Elmi-Praktik Konfrans, ,www.azmiu.edu.az. 10-11 Mart Bakı, AzMİU 2021.

22. Binnətov Y.C. Tikinti şirkətlərində (müəssisələrində) marketinq fəaliyyətinin təhlili..//"International Scientific-Practical Conference "Energy-Saving Innovations In Architecture Andconstruction Esiac 2021" Beynəlxalq Elmi-Praktik Konfrans, Www. AZMİU.Edu.Az. 20-21oktyabr, Bakı, AZMİU 2021,s.239-243

23. Binnətov Y.C. İnvestisiya tikinti layihələrinin səmərəliliyinin qiymətləndirilməsində inflyasiyanın təsiri.// Zəfər gününə həsr olunmuş gənc tədqiqatçıların elmi məqalələr toplusu II-nəsr. 2022 https://gead.az/az-content/114.4.html. isbn 978-9952-8024-1-2, s.56-60

24. Binnətov Y.C Müasir iqtisadi münasibətlər şəraitində tikinti sahəsinin ölkə iqtisadiyyatının inkişafında rolu. "İnşaatın

müasir problemləri" Mövzusunda Beynəlxalq elmi–praktik konfrans. Bakı.2024. https://azmiu.edu.az/upload/ckeditor/1083213751.pdf

25. Binnətov Y.C. Əmək bazarina nəzarət və əməyin qiymətinin müəyyənləşdirilməsi problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri" mövzusunda Beynəlxalq elmi konfrans, Gəncə 2024. https://gdu.edu.az/wp-content/uploads/2024/05/Konfrans_2024_5.pdf.s.239-242

26. Binnatov Y.J . Mammedova A. M, Nasirova O.A, Intellectual Capital as a Basis for the Development of Post-Industrial Economy. Tuijin Jishu / Journal of Propulsion Technology. 2024. **Scopus**. https://www.propulsiontechjournal.com/index.php/journal/article/view/5254. s.4606-4609.

27. Binnətov Y.C. İstehsal satış fəaliyyətinin həyata keçirilməsində internet resurslarının rolu.// International Scientific Symposium "A flag once raised will never fall again!", dedicated to the 140 th anniversary of the founder of the Azerbaijan Democratic Republic Mammad Amin Rasulzadeh The Kars / Türkiye2024. https://www.academia.edu/114281123/İSBN:978-625-94433-0-0.s.624-628.

28. Binnatov Y.J , Jahan Guliyeva. Theoretical principles of market relations in the agricultural sector.// Науковий журнал «Економіка і регіон. Полтава, Украина 2024. https://scholar.google.com/scholar?oi=bibs&cluster=3068328362246351856&btnI=1&hl=rus.6-10.

29. Binnətov Y.C Tikinti sahəsində yeni iqtisadi münasibətlərin yaranmasının tikintinin inkişafına təsiri.// Scıentıfic Works Azerbaıjan University Of Architecture And Construction. 2024. https://www.swjournal.az/journals/143/206.s.189-194

30. Binnətov Y.C. Müasir mərhələdə tikinti sahəsində bağlaşma münasibətlərinin təkmilləşdirilməsi.// Dedicated to the 101th anniversary of the National leader of Azerbaijan, Heydar Aliyev VIII International Scientific Onference of Young Researchersb**.** Baku 2024.

ttps://beu.edu.az/root_panel/upload/files/beu_edu_az/documents/2024/GTK_VIII_TAM_2.pdf. s.1513-1517

31. Binnətov Y.C. Yeni iqtisadi münasibətlər sistemində kommersiya şirkətinin gəlirlərinin formalaşması və onun quruluşu.// Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur" Respublika elmi konfrans. Mingəçevir 2024. https://mdu.edu.az/wp-content/uploads/2024/07/Konfrans-materıalları-H.Eliyev-101-2024.pdf.s.455-458

32. Binnətov Y.C Müasir mərhələdə tikintidə gəlirlərin yaranması mənbələri və onun növləri.// "Dördüncü Sənaye İnqilabı Dövründə Elm və texnologiyaların mövcud vəziyyəti və inkişaf perspektivləri" Beynəlxalq elmi-praktik konfrans. Gəncə 2024. https://atu.edu.az/storage/konfrans/5331717799833.pdf.s.401-404



Dissertasiyanın müdafiəsi 30 may 2025-ci il tarixində saat $11^{00}$ Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED-1.10 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1143, Bakı şəh., H.Cavid pr., 115

Dissertasiya ilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında (economics.com.az) yerləşdirilmişdir.

Avtoreferat 22 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:17.04.2025
Kağızın formatı: A5
Həcm:39 580
Tiraj: 100